# Azərbaycan muğamının Alim zirvəsi



**Yer üzündə bütün səslər içərisində Allaha ən yaxını musiqidir. Əgər belə olmasaydı, heç bir ifaçı minləri, milyonları bir araya gətirib onları səsin sehrinə sala bilməzdi. Elə o günkü kimi. Həmin gün Heydər Əliyev Sarayında xalq artisti, "Şöhrət" ordenli muğam ustası Alim Qasımovla qızı Fərqanə Qasımova eyni səhnəni birgə, lakin fərqli, həm də yeni forma və məzmunda bölüşürdülər...**

**Azərbaycan xalqının qədim irsi olan muğam çoxdan geniş kütlələrin ümumi sərvətinə çevrilib. Keçən əsrin 70-ci illərindən başlayaraq YUNESKO Azərbaycan muğam sənətini "kəşf edib". 1975-ci ildə Azərbaycan muğamları YUNESKO tərəfindən "Musiqi mənbələri" seriyasında buraxılıb. 2003-cü ildə isə YUNESKO Azərbaycan muğamını "bəşəriyyətin şifahi və mənəvi irsinin şedevrləri" siyahısına daxil etməklə, bir daha muğamın bədii təkrarolunmazlığını və dünya mədəniyyəti üçün dəyərini təsdiq etmiş oldu.**

Azərbaycan muğamı ilə bağlı bütün bu olmuşlar xalq artisti Alim Qasımovun ifasında daha geniş üfüqlərə yol açıb tanınmağa, sevilməyə və olduqca böyük zirvələri fəth etməyə başlayıb.

Onun səsi qəlb yanğısından yoğrulduğundandır ki, hər zaman insanı kamilliyə səsləyir. Bu səsdə fərəh də var, kədər də. Alimin ifaları dodağı susuzluqdan cadar-cadar olmuş torpağın yanğısına sərinlik səpən çağlayan bulaq suyuna bənzəyir. O oxuduqca insan sanki qədim bir rəvayət dinləyirmiş kimi dünənini öyrənir, bu gününü dərk edir və sabahına boylanır.

Alim Qasımov olmaq yolu alın təri, fəhlə əməyi, gecə-gündüz usanmadan çalışmaqdan keçir. Alim Qasımov olmağın mahiyyətində məcnunluq, sənətə, ifaya, muğama dəlicəsinə, çılğıncasına aşiqlik vardır.

Alim Qasımovun həyat yolunu vərəqləyərkən diqqətimi çəkən aşağıdakı məqamı bu yazıda yenidən oxucuların diqqətinə çatdırmaq qərarına gəldim.

Körpə ikən halı xarablaşan Alimi valideynləri Həmzə kişi və Mədinə xanım Bakıya - Qarayev adına uşaq xəstəxanasına gətirirlər. Həkimlər heç bir ümid yeri qoymurlar, "bu uşaqdan əlinizi üzün" - deyirlər. Elə bu məqamda Mədinə xanımla bir palatada yatan qadın gələcək xanəndənin dərd-qəmə batmış anasına maraqlı məsləhət verir: "Bacım, ola bilsin, indiki adı uşağa düşmür. Gəlsənə, onun adını dəyişəsən. Bəlkə Allah rəhm elədi, sağ qaldı".

Gələcək muğam ulduzunun ilk adı Pənah imiş. Əli hər yandan üzülən Mədinə ana da ona məsləhət verən qadına deyir, indi ki bu sənin ağlına gəlib, elə körpəmə təzə adı da özün ver. Qadın bir an düşünüb, sonra "qoy uşağın adı Alim olsun " - deyir. Bu həmin addır ki, indi dünyanın neçə qitəsində Azərbaycanın mədəniyyətini, musiqi sənətini tanıdır. Təzə ad həqiqətən də körpə üçün düşərli olur.

Azərbaycan musiqisində bir-birinə bənzəyən və bənzəməyən səslər çox olmuşdur. Bu sənətə könül bağlayıb, onu sevən və sevdirənlər də az olmayıb. Bu olanların və olmuşların sırasında olmaq, ola bilmək şərəfli sayıldığı qədər də çətin və məsuliyyətlidir. Bu gün qəlbində sözə və səsə yer olan milyonlara yaxşı tanışdır onun ifa tərzi. Sənətə bütün ifaçılar kimi oxumaq, özünü sübut etmək amalı ilə gələn Alim Qasımov qısa zaman kəsiyində çoxlarından, bəlkə də elə hamıdan fərqləndi. Ən azı ona görə ki, özü olmağa çalışdı və oldu. Təkcə səsi, avazı, zili, bəmi ilə yox, həm də danışığı, gülüşü, geyimi, qazandığı tamaşaçı sevgisi ilə. Hamı kimi başlasa da, özü kimi addımlamağa qərar verdi və muğamatın Alim yolunu tapa bildi. O sözsüz ki, bu cür oxumalı idi.

İlk başlanğıcda ona heyfi gələnlər də az olmadı. Alimin bu yolda uzun illər duruş gətirəcəyinə inananların sırası barmaqla sayılacaq qədər idi. Amma Alim muğamın minillik könül bağçasında elə bardaş qurub əyləşdi ki, illər keçdikdən sonra onu buradan qaldırmağın mümkünsüzlüyü və günah olduğu bütövlükdə qəbul edildi. İllər ötdükcə o, dinləyicisinin diqqətini təkcə səsinə, ifasına deyil, həm də hərəkətlərinə cəmləyə bildi. İlk başlanğıcda birmənalı qarşılanmayan əl-qol hərəkətləri, tərpənişlər, enmələr, qalxmalar sonradan onun ifalarında elə tamamlandı ki, bunun da mümkünsüzlüyü dərk olunmağa başlandı.

Hər kəsdən ədalətli olan zaman bir daha sübut etdi ki, Alim bütün bunları özündən icad etməyib. Belə oxumağın yolu yalnız və yalnız bu cür çırpınmadan, özündən uzaqlaşıb, yenidən özünə qayıdışdan keçir. Yollar, çaylar, fəsillər, bütövlükdə götürsək, ömrümüz kimi. Axı, bu sadaladıqlarımızın da enişi-yoxuşu, əyrisi-düzü, soyuğu-istisi, şirini-acısı daha nələri, nələri var. Alimin səsi də məhz bu hərəkətlərin fonunda dinləyici ilə eyni hissləri bölüşə bildi. Bir sözlə, ənənəni dağıtmayan sənətkar heç zaman dahi sənətkar ola bilmir.

Alim muğamımızın və mədəniyyətimizin tarixində əbədi qalmaq haqqını qazanmış sənətkarlardandır. Alim səsi, Alim ifası sanki bütün keçilmiş yolun yekunu, qazanılmış təcrübənin məcmusu və zirvəsidir.

Alim Avropa səhnəsinə XX əsrin sonlarında çıxdı, qısa zaman kəsiyində avropalılara muğamı sevdirməklə yanaşı, onları muğam aludəçisinə çevirə bildi. O, muğam sənətini Fransa, İngiltərə, ABŞ, Almaniya, Belçika, İspaniya, Yaponiya, Braziliya, İran və digər ölkələrdə tanıdaraq Azərbaycan mədəniyyətinin dünyaya yayılması üçün böyük iş görmüş, Şərq-Qərb anlaşmasını, Şərq-Qərb yaxınlaşmasını və vəhdətini təmin etmək baxımından misilsiz xidmət göstərmişdir. A.Qasımovun Avropada, Amerikada ifa elədiyi muğam sadəcə istedadlı bir xalqın ənənələrinə və düşüncə tərzinə bağlı ekzotika kimi yox, bəşəri musiqi - dünya musiqisi kimi dəyərləndirilir.

Əgər bu gün YUNESKO muğam ustası Alim Qasımovu dünyanın yüzlərlə, minlərlə ifaçısı arasından seçib ən yüksək mükafatına layiq görürsə, bu muğamın, Şərqin, Azərbaycanın uğurudur. Xatırladaq ki, sənətkar 1999-cu ildə Beynəlxalq İMC UNESCO Musiqi mükafatını almışdır. O, həmçinin Amerikanın məşhur Corctaun Universiteti və mərkəzi İordaniyada yerləşən Strateji Araşdırmalar Mərkəzinin keçirdiyi müsabiqədə dünyanın ən nüfuzlu 500 müsəlmanı arasında 4 azərbaycanlıdan biri olmuşdur.

Alimi dinləyənlər yaxşı bilirlər ki, bu səsin və sənətin sərhədi yoxdur. Orda bütün muğamlar qarışa, şöbələr birləşə, təsniflər eyniləşə, ritmlər içiçə düşə bilər. Lakin bu "qarışıqlığın" heç vaxt pozulmayan vahid bir prinsipi var. Alim ifalarında

böyük ustalıqla muğamlarımızın, demək olar ki, bütün şöbələrinə baş vurur. Muğamdan az-çox baş çıxaranlar bu gedişlərə sadəcə olaraq heyrətlənməyə bilmirlər. Çünki insan daha çox bildiyi şeylərə heyrətlənir. Hələ onun etdiyi gözlənilməz gedişləri, hər bir muğam parçasından sonra oxuduğu rəngarəng təsnifləri demirəm.



Alimi səhnədə tar, kaman, balaban, nağara ifaçıları müşayiət edir. Bu dördlük Alimin dəstəyi ilə səhnədə böyük bir orkestrin işini görür. A.Qasımov ifa etdiyi muğamı dəfdə vurduğu maraqlı ritmlərlə bir daha zənginləşdirir.

Azərbaycan səhnəsi Alimə qədər və Alimdən sonra səhnəni övladı ilə bölüşən çox sənətçilər görüb və bundan sonra da görəcəkdir. Lakin onların heç birinə Alim xoşbəxtliyi nəsib olmayıb. A.Qasımov tələbəsi və qızı Fərqanəni özünə layiqli davamçı yetişdirməklə yanaşı, muğam ifaçılığında ilk dəfə olaraq qadın və kişi səslərinin birgəliyini, həmahəngliyini yaratmağa nail olmuşdur. Ata-bala, Alimlə Fərqanə biri-birini səhnədə elə tamamlayır ki, dinləyici öz içinə çəkilib sadəcə onları dinləməyə məhkum olur. Təbii ki, söhbət mənəvi zövqün məhkumluğundan gedir.

Alim Qasımov doğulduğu zamanın deyil, bütün zamanların sənətkarıdır. Alim bu gün bəndənin dərdini Allaha çatdırmağa can atan bir səs adamına çevrilib. O, qəlblərə hakim kəsilən səsinin gücü ilə bütün sədləri, sərhədləri, çərçivələri aşaraq insanları mərhəmətə, düzlüyə, haqqa, sevgiyə səsləyir.

... Heydər Əliyev Sarayı bir-birindən güclü və tanınmış çox sənətçilər görüb. Bu səhnədə çoxlarına əl çalınıb, gül dəstələri təqdim edilib. Bütün bunlar hər bir konsertdə təkrarlanan məsələlərdir. Amma o gün bu saray tamam başqa bir görkəm almışdı. Ayaq üstdə dayanmış insanların sürəkli alqışları Alim səsinin doyulmazlığını, onun hər zaman arzulanan bir ifaçı olmasını açıq-aydın sübut edirdi.



**O gün tamaşaçılar üçün konsertin sonunu fikirləşmək heç də ağlagələsi bir iş deyildi. İnsanların alqışları ilə Alim dəfələrlə yenidən səhnəyə döndü və oxudu. Nəzərdə tutulmuş vaxtdan bir saat da əlavə oxudu. Amma konsert sona çatsa da hamı Alimi ilk başlanğıcda olduğu kimi yenidən, özü də böyük həvəslə dinləmək istəyirdi. Bu istəyin sonu yoxdur. Sizcə, sənətkar üçün bundan böyük qazanc, bundan böyük xoşbəxtlik varmı...**

**A.SUVAR**